**Auditorlar Palatasında 2025-ci il 18 mart tarixində təşkil edilmiş “Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması üçün xüsusi bir mexanizmin yaradılması və tətbiq edilməsi” və “Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflərin verilməsi” mövzuları barədə “Dəyirmi masa”nın iclas**

# PROTOKOLU

# №03

**Bakı şəhəri** **18 mart 2025-ci il**

**Sədrlik edirdi:** Qəşəm Bayramov – Auditorlar Palatası Aparatının və “Dəyirmi masa”nın rəhbəri.

**İştirak edirdilər:** Nəcəf Talıbov – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri, Auditorlar Palatasının Şurası yanında Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri;

Barat Orucov – Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi vəzifəsini icra edən;

Zaur Almazov – Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri;

Nigar İsmayılova – Auditin təşkili və təhlili şöbəsinin müdiri;

Elnur İbrahimov – Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi;

Elxan Qəmbərov – Dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə iş şöbəsinin müdiri;

Vasif Cavadov – Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi;

Elmira Behbudova – Kadr hazırlığı idarəsinin rəisi;

Rövşən Cəfərli – Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi;

Elfirida Hacızadə - Haqsız rəqabətə qarşı mübarizə idarəsinin aparıcı mütəxəssisi, “Dəyirmi masa”nın katibi;

Anar Bayramov – “İnvest Finance” MMC-nin direktor-auditoru, Auditorlar Palatasının Şurası yanında Rəqəmsallaşma, innovasiyaların tətbiqi və yaşıl iqtisadiyyat üzrə komitənin sədri;

Azər Əliyev – “A Plus Audit” MMC-nin direktor-auditoru;

Eldar Təhməzov – “Azəruçot” MMC-nin direktor-auditoru;

Elzadə Süleymanova – “Azel-Audit” MMC-nin direktor-auditoru;

Elçin Əliyev – “BKR Consulting” MMC-nin direktor-auditoru, Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin sədri;
Elxan İsmayılov – “Elvi Audit Finans” MMC-nin direktor-auditoru;
Faiq Avşar – “RF Tax Consulting 2015” MMC-nin direktor-auditoru;
Nazim Axundov – Sərbəst auditor;
Yasin Şirinov - “Azəri Audit Servis” MMC-nin auditoru;
Zamin Hüseynov –“ABAK-Az Crovve LTD” MMC-nin direktor-auditoru;
Rüfət Əliyev – “A Audit and Consulting” MMC-nin direktor-auditoru;
Namiq Abbaslı – “ANR Audit” MMC-nin direktor-auditoru, Auditorlar Palatasının Şurası yanında Beynəlxalq Audit Standartları üzrə komitənin sədri;
Vidadi Talıbov – Sərbəst auditor, Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri.

**Gündəlik: “Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması üçün xüsusi bir mexanizmin yaradılması və tətbiq edilməsi" və “Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflərin verilməsi” barədə mövzuların müzakirəsi.**

Azərbaycan Respublikasının Auditorlar Palatasında 2025-ci ilin 18 mart tarixində Auditorlar Palatası Şurasının 2025-ci il 28 fevral tarixli 374/5 və 374/6 nömrəli qərarları ilə təsdiq edilmiş “Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması mexanizminin yaradılması və tətbiq edilməsi” və “Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflərin hazırlanması” mövzularında “Dəyirmi masa” təşkil edilib.

“Dəyirmi masa”nın rəhbəri Qəşəm Bayramov çıxış edərək bildirdi ki, Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.4-cü “Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması mexanizminin yaradılması və tətbiq edilməsi” və 6.6-cı “Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflərin hazırlanması” bəndlərinin icrasını təmin etmək məqsədilə Haqsız rəqabətə qarşı mübarizə idarəsi tərəfindən “Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması mexanizmi”nin layihəsi və “Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflər” hazırlanmış və Palata Şurasının 2025-ci il 28 fevral tarixində keçirilən iclasında müzakirə

olunmaq üçün təqdim edilmişdir. Palata Şurasının 2025-ci il 28 fevral tarixli 374/5 və 374/6 nömrəli qərarlarına əsasən, həmin layihələrin 2025-ci ilin 18 mart tarixində keçiriləcək “Dəyirmi masa”da müzakirə olunması və “Dəyirmi masa” üzvləri tərəfindən verilən təkliflər nəzərə alınmaqla yenidən işlənib hazırlanması məqsədəmüvafiq hesab edilmişdir.

Mexanizm, auditor xidmətləri sahəsindəki hər hansı qeyri-etik və qeyri-qanuni fəaliyyətlərin aşkar edilməsi və qarşısının alınması məqsədini güdür.

Mexanizm aşağıdakı 5 bölmədən ibarətdir:

1. Giriş;
2. Mexanizmin məqsədi və əhəmiyyəti;
3. Mexanizmin prinsipləri;
4. Mexanizmin həyata keçirilməsi prosedurları;
5. Gözlənilən nəticələr.

“Dəyirmi masa”da müzakirə olunmaq üçün aşağıdakı təkliflər təqdim edilmişdir:

1. Təsərrüfat subyekti ilə bağlanılan müqavilənin ləğvi;
2. Maliyyə cərimələri;
3. Təkrarlanan pozuntulara qarşı cərimələrin artırılması;
4. İcazələrin müvəqqəti dayandırılması;
5. İcazənin daimi ləğvi;
6. İctimaiyyətə açıqlama edilməsi;
7. Etik audit mükafatları.

Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflər bazarda qeyri-etik və haqsız rəqabətə qarşı mübarizə tədbirlərinin görülməsini və auditor xidmətlərinin keyfiyyətinin artırılmasını hədəfləyir.

Daha sonra Qəşəm Bayramov auditor xidmətləri sahəsindəki hər hansı qeyri-etik və qeyri-qanuni fəaliyyətlərin aşkar edilməsi və haqsız rəqabət hallarının qarşısının alınması barədə bəhs edərək bildirib ki, Auditorlar Palatası ötən dövr ərzində haqsız rəqabət hallarının qarşısının alınmasına dair xeyli təqdirəlayiq işlər görmüşdür.

Belə ki, Auditorlar Palatası Şurasının 2022-ci il 15 fevral tarixli 340/1 nömrəli qərarı ilə Auditorlar Palatası 2022-ci ili “Haqsız rəqabətlə mübarizə ili” elan etmişdir. Auditorlar Palatasının strukturunda Haqsız rəqabətə qarşı mübarizə idarəsi və Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə yaradılmışdır.

Həmin idarə və komitə tərəfindən haqsız rəqabətə qarşı mübarizə ilə əlaqədar Türkiyə Respublikasının təcrübəsi öyrənilmiş və onların tətbiqinə dair Auditorlar Palatasının sədri, professor V.Novruzovun rəhbərliyi altında Palatanın Şurası yanında müvafiq komitələr və Palatanın struktur bölmələri tərəfindən 11 metodik vəsaitdən ibarət

“Haqsız rəqabətə qarşı mübarizə üzrə metodik materiallar toplusu” və “Qütb ulduzumuz” kitabı hazırlanmış, eyni zamanda nəşr etdirilmiş və xidməti istifadə üçün auditor təşkilatlarına, sərbəst auditorlara paylanılmışdır.

İnkişaf etmiş xarici ölkələrin təcrübəsi nəzərə alınmaqla Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri müəyyən edilmiş və Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmişdir. Həmin minimum hədlərə dəyişiklik edilərək Şuranın 2023-cü il 16 may tarixli 356/1 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Çox təəssüflər olsun ki, bir sıra auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətlərinin dəyərinin minimum hədlərinə riayət etməyərək aşağı qiymətlərə müqavilə bağlayırlar və Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), Auditorlar Palatasının normativ sənədlərinin tələblərinə düzgün riayət edilmədən keyfiyyətsiz audit aparırlar.

Bu məqsədlə Palatanın müvafiq struktur bölmələri tərəfindən mütəmadi olaraq araşdırmalar və təhlillər aparılır, nəticəsi üzrə Palatanın normativ sənədlərinə əsasən intizam və tənbeh tədbirləri görülür.

2024-cü ilin avqust ayında Palatanın üzvləri arasında Auditor xidməti bazasında haqsız rəqabətə qarşı mübarizəyə dair sorğu aparılmış və üzvlər tərəfindən verilən təkliflər də nəzərə alınmaqla Auditorlar Palatasının 2025-ci il üzrə iş planında haqsız rəqabətə qarşı mübarizə ilə əlaqədar 8 tədbirin icrası nəzərdə tutulmuş və hal-hazırda həmin işlərin icrası davam etdirilir.

Daha sonra Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi Rövşən Cəfərli çıxış edərək bildirdi ki, haqsız rəqabət, iqtisadi fəaliyyətin əsas prinsiplərindən biri olan ədalətli rəqabətə zidd olan və bazar iştirakçıları arasında qeyri-bərabər üstünlüklərin yaranmasına səbəb olan fəaliyyətləri ifadə edir. Audit sahəsində haqsız rəqabət halları bazarın düzgün işləməsini pozur və auditor xidmətinin etibarlılığını zəiflədir. Bu səbəbdən, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və auditor xidmətinin şəffaflığına nəzarət edilməsi çox vacibdir.

Bundan başqa ilk dəfə olaraq Palatanın 2025-ci il üzrə iş planına ayrıca olaraq “Haqsız rəqabətə qarşı mübarizə bölməsi” daxil edilmişdir. İş planında haqsız rəqabətlə mübarizəyə dair kifayət qədər yeni-yeni tədbirlər nəzərdə tutulmuşdur. Bu da öz növbəsində Palata tərəfindən haqsız rəqabətlə mübarizənin nə qədər vacib olduğunu göstərir.

Bununla belə, auditor xidmətinin mövcud problemləri və auditorlar arasında hələ də tam əldə olunmayan peşə həmrəyliyi, dempinq hallarının mövcudluğu, digər tərəfdən

xidmətin keyfiyyətinin bir çox hallarda günün tələblərinə tam cavab verməməsi yaxın gələcəkdə görüləcək işlərin mühümlüyünü ortaya qoyur.

Auditor xidməti sahəsində haqsız rəqabətlə mübarizədə mövcud problemlərin həlli üçün qətiyyətli addımlar atılmalı və auditorlar arasında daha güclü peşə həmrəyliyi qurulmalıdır. Həmçinin, dempinqlə mübarizənin davam etdirilməsi və xidmət keyfiyyətinin yüksəldilməsi üçün mütəmadi olaraq təkmilləşdirmə işləri aparılmalıdır.

“Azəri Audit Servis” MMC-nin auditoru Yasin Şirinov, “A Audit and Consulting” MMC-nin direktor-auditoru Rüfət Əliyev, Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi  Elnur İbrahimov, “ANR Audit” MMC-nin direktor-auditoru, Palatanın Şurası yanında Beynəlxalq Audit Standartları üzrə komitənin sədri Namiq Abbaslı, sərbəst auditor, Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri Vidadi Talıbov və Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri, Palatanın Şurası yanında Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri Nəcəf Talıbov “Dəyirmi masa”da çıxış edərək bir sıra təkliflər irəli sürdülər.

Belə ki, “ANR Audit” MMC-nin direktor-auditoru Namiq Abbaslı çıxış edərək anonim müraciətlərə baxılmadığını bildirdi. Bu baxımdan anonimlik sözünün məxfiliyin qorunması sözü ilə əvəz edilməsini təklif etdi.

Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi Elnur İbrahimov da çıxışında qanunda göstərildiyi kimi anonim şikayətlərə baxılmadığını bildirdi. Belə ki, o, şikayətçinin adının məxfi saxlanmasının əleyhinə olduğunu bildirdi. Elnur İbrahimov eyni zamanda qeyd etdi ki, iddiaçı şikayətini əsaslandırmalıdır, həmçinin şikayət olunan tərəf də özünü müdafiə etməlidir.

Davamında “Azəri Audit Servis” MMC-nin auditoru Yasin Şirinov da mexanizmdə anonimlik sözünün çıxarılmasını vurğuladı. Eyni zamanda mexanizmin 3-cü və 4-cü bəndlərində dəyişikliklər edilməsini təklif etdi.

“A Audit and Consulting” MMC-nin direktor-auditoru Rüfət Əliyev isə bildirdi ki, məxfilik qalsın. Rüfət Əliyev qeyd etdi ki, məxfilik olmasa bir sıra auditorlar şikayətdən çəkinəcək və məsələlər həll olunmayacaq.

“Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üçün təkliflər” barədə Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi Rövşən Cəfərli çıxış edərək, ilk olaraq təsərrüfat subyektləri ilə bağlanan müqavilə ləğv edilməsini təklif etdi və sənəddə qeyd olunan təkliflərin hər biri üzrə ayrı-ayrılıqda “Dəyirmi masa” üzvlərinin fikir bildirməsini xahiş etdi.

Sərbəst auditor, Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri Vidadi Talıbov çıxış edərək təsərrüfat subyekti ilə bağlanan müqavilənin ləğv edilməsinin qeyri-qanuni olduğunu bildirdi.

Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi Elnur İbrahimov qeyd etdi ki, 2 tərəf arasında bağlanan müqavilənin 3-cü tərəf tərəfindən ləğv edilməsi qadağandır. Müqavilə ləğv edilə bilməz, lakin auditor xidməti keyfiyyətsiz hesab edilə bilər. Eyni zamanda Elnur İbrahimov 3 keyfiyyətsiz audit işinə görə icazənin ləğv edilməsini qanunvericiliklə mümkün olduğunu bildirdi.

Daha sonra növbəti təklif üzrə Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi Rövşən Cəfərli çıxış edərək haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üçün maliyyə cərimələri tətbiq olunmasının vacibliyini bildirdi.

Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri, Palatanın Şurası yanında Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri Nəcəf Talıbov bu təklifin auditorlar arasında daha geniş tərkibdə müzakirə edilməsini təklif etdi.

Növbəti təklif üzrə Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi Rövşən Cəfərli çıxış edərək auditorlar tərəfindən təkrarlanan pozuntulara yol verilərsə, bu halda cərimələrin artırılmasını vurğuladı.

“Dəyirmi masa”nın üzvləri bu təklifin bundan əvvəl qeyd olunan maliyyə cərimələri ilə əlaqəli olduğunu və əvvəlki təklifdən asılı olaraq qəbul ediləcəyini bildirdilər.

Daha sonra növbəti təklif üzrə Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi Rövşən Cəfərli çıxış edərək haqsız rəqabət və dempinq hallarına yol verən auditorların icazələrinin müvəqqəti dayandırılması müddəti Palata Şurasının 2022-ci il 19 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə”yə əsasən 6 ay nəzərdə tutulmuşdur. Rövşən Cəfərli bu müddətin minimum 2 il olmasını təklif etdi.

Auditin təşkili və hesabatlılıq idarəsinin rəisi Vasif Cavadov və Sərbəst auditor, Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri Vidadi Talıbov isə çıxışında icazənin müvəqqəti dayandırılması müddətinin 1 il olaraq qəbul edilməsini təklif etdi.

Daha sonra Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi Rövşən Cəfərli təkrarlanan pozuntular və xüsusilə ciddi pozuntular halında auditorların icazələrinin daimi olaraq ləğv edilməsini təklif edildiyini bildirdi.

“Dəyirmi masa”nın üzvləri bu təklifin digər təkliflərin qəbul edilməsindən asılı olduğunu qeyd etdilər.

Növbəti təklif üzrə Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi Rövşən Cəfərli çıxış edərək haqsız rəqabət və dempinq hallarına yol verən auditorlarla bağlı ictimaiyyətə açıqlama verilməsi müştərilərin daha məlumatlı olmasına və auditorun nüfuzunun zədələnməsinə səbəb olacağını bildirdi.

"A Audit and Consulting" MMC-nin direktor-auditoru Rüfət Əliyev minimum hədlərə yaxın məbləğə müqavilə bağlayan auditorların ilk dəfə üçün güzəştli olaraq adlarının ictimaiyyətə açıqlanmamasını təklif etdi.

Sonuncu təklif üzrə Haqsız rəqabətə qarşı mübarizə idarəsinin rəisi Rövşən Cəfərli çıxış edərək peşəkar etik standartlara riayət edən auditorlar üçün mükafatlar və sertifikatların təqdim edilməsi onların fəaliyyətlərinin qiymətləndiriləcəyini, peşəkar davranışları təşviq edəcəyini və nəticə olaraq bazarda ədalətli rəqabətə stimul verəcəyini bildirdi.

"Dəyirmi masa" üzvləri bu təklifin qəbul edilməsinə razılıqlarını bildirdilər.

Aparatın və "Dəyirmi masa"nın rəhbəri Qəşəm Bayramov və eyni zamanda Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri, Palatanın Şurası yanında Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədr Nəcəf Talıbov bildirdilər ki, Palatanın sədri Vahid Novruzov bu məsələ ilə bağlı böyük işlər həyata keçirir. Qanun layihələri hazırlanıb təqdim olunur. Lakin bir çox məsələlər bizdən asılı olmayan səbəblərə görə qəbul olunmur. Bu məsələlər ağır məsələlərdir və yavaş-yavaş həll olunacaqdır.

"Dəyirmi masa"da onlayn qaydada Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2024-ü il 19 yanvar tarixli 1/6 nömrəli Sərəncamı ilə təsdiq olunmuş 16 nəfər "Dəyirmi masa"nın üzvləri və 8 nəfər Palatanın əməkdaşları iştirak etmişlər.

"Dəyirmi masa"nın üzvləri tərəfindən "Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması mexanizmi"nin layihəsi və "Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflər" müzakirə edilərək **Qərara alındı:**

1. "Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması mexanizmi"nin layihəsində "anonim" sözü çıxarılsın;

2. "Anonim" sözünün çıxarılması ilə əlaqədar mexanizmdə müvafiq dəyişikliklər edilsin;

3. "Azəri Audit Servis" MMC-nin auditoru Yasin Şirinovun hər iki mövzu ilə bağlı təklifləri nəzərə alınsın;

4. "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə"də icazələrinin müvəqqəti dayandırılması müddətinin 1 il olaraq dəyişdirilməsi təmin edilsin;

5. Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara üzvlük haqqının artırılması ilə bağlı maliyyə cərimələri tətbiq edilsin;

6. “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nə yaxın məbləğdə müqavilə bağlayan auditorların ilk dəfə üçün güzəştli olaraq adları ictimaiyyətə açıqlanmasın;

7. Yuxarıda qeyd edilən təkliflər nəzərə alınmaqla “Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması mexanizmi”nin layihəsi və “Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflər” yenidən işlənib hazırlansın və Palata Şurasının növbəti iclasında müzakirə olunmaq üçün təqdim edilsin.

**İclasın sədri** **Qəşəm Bayramov**

**İclasın katibi** **Elfirida Hacızadə**